| | |
|---|---|
| “Dövlət qeydiyyatına alınmışdır”<br>Azərbaycan Respublikasının<br>Ədliyyə Nazirliyi<br>Qeydiyyat 3355<br>24 avqust 2007-ci il<br><br>Nazir müavini __________ Toğrul Musayev | “Təsdiq edirəm”<br>Azərbaycan Respublikası<br>Rabitə və İnformasiya<br>Texnologiyaları Nazirliyi<br>Əmr 135<br>09 avqust 2007-ci il<br>Nazir ______________________ Əli Abbasov |

**“İnternet rabitəsi xidmətlərindən istifadə Qaydaları”na dəyişikliklər**

1. Azərbaycan Respublikası Rabitə Nazirliyinin 24 fevral 2000-ci il tarixli, 46 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 14 mart 2000-ci il tarixində dövlət qeydiyyatına alınmış (şəhadətnamə 598) "İnternet rabitəsi xidmətlərindən istifadə Qaydaları"na aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci bölmənin birinci və dördüncü abzaslarında “Rabitə haqqında” Azərbaycan Respublikasının Qanununa” sözləri “Azərbaycan Respublikasının qanunvericiliyinə” sözləri ilə əvəz edilsin;

1.2. 4.1-ci bəndin d) yarımbəndində, 4.6-cı , 8.1-ci bəndlərdə “Rabitə Nazirliyi” sözləri ismin müvafiq hallarında “Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi” sözləri ilə əvəz edilsin;

1.3. 4.2-ci bəndin a) yarımbəndində və Əlavə 1 “İnternet xidmətləri üçün Müqavilə”nin 5.2-ci bəndinin b) yarımbəndində “Rabitə haqqında” sözləri “Telekommunikasiya haqqında” sözləri ilə əvəz edilsin;

1.4. Əlavə 1-in 4.1-ci bəndində “Rabitə Nazirliyi” sözləri “Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi” sözləri ilə əvəz edilsin;

1.5. “Əlavə -2 “İnternet xidmətləri üçün tariflər preyskurantı”nın qeyd hissəsi çıxarılsın.